UOT 341; 342; 343

**Əliyev Nazim Kazım oğlu**

# Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərin ümumi səciyyəsi: milli təhlükəsizliyin qanunvericilik təminatı kontekstində

**XÜLASƏ**

Konstitusiya quruluşunun əsasları Azərbaycan Respublikasının əsas qanununda təsbit edilmiş cəmiyyətə və dövlətə xas olan münasibətlər məcmusudur. Milli təhlükəsizliyin təmin edilməsi, eyni zamanda dövlətin quruluşunun əsaslarının uğurlu cinayət və hüquqi müdafiəsindən də asılıdır. Məqalədə bu məsələlər nəzərdən keçirilir və Azərbaycan Respublikasının mövcud cinayət qanunvericiliyində bəzi dəyişikliklər nəzərdə tutulur.

***Açar sözlər**: dövlət, konstitusiya quruluşu, milli təhlükəsizlik, mənafe, milli təhlükəsizliyin obyektləri, cinayət qanunu.*

***Ключевые слова**: государство, конституционной строй, национальная безопасность, интерес, объекты национальной безопасности, уголовный закон.*

***Key words**: state, constitutional order, national security, interest, national security facilities, criminal law*

Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanununun 1-ci maddəsində milli təhlükəsizliyə aşağıdakı məzmunda anlayış verilmişdir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir". Ədəbiyyatlarda, bəzən isə qanunvericilik aktları səviyyəsində "milli təhlükəsizlik" və "dövlət təhlükəsizliyi" terminləri eyniləşdirilir. Buna Rusiya Federasiyasının "Təhlükəsizlik haqqında" 7 dekabr 2010-cu il tarixli qanununda rast gəlmək mümkündür (27). Biz bunu düzgün saymırıq. Hesab edirik ki, dövlət təhlükəsizliyi milli təhlükəsizlik anlayışının əsasını təşkil edir. Bununla belə, milli təhlükəsizlik anlayışı dövlət təhlükəsizliyi anlayışından daha geniş olub, özünə dövlətin təhlükəsizliyini də daxil edir. Belə ki, dövlət üçün yaranmış təhlükə onun süqutuna gətirib çıxara bilər, lakin millət öz mövcudluğunu davam etdirə bilər.

Milli təhlükəsizlik hər bir ölkənin sabit inkişafının, şəxsiyyətin, cəmiyyətin və dövlətin müxtəlif fəaliyyət sahələrində həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən etibarlı müdafiə oluna bilmək təminatıdır. Respublikamızın milli təhlükəsizlik konsepsiyasına əsasən, milli təhlükəsizlik dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçim kimi Avratlantik

məkana inteqrasiyanı, tarazlaşdırılmış xarici siyasətin çoxşaxəliliyini, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövlətin xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarını əks etdirir (5). Düşünürük ki, milli təhlükəsizliyin qanunvericilik anlayışında onun obyektləri öz əksini lazımi səviyyədə tapmış, komponentlərinə haqlı olaraq dövlət, ictimai, ekoloji, iqtisadi, hərbi, informasiya və s. təhlükəsizlik növləri aid edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin təhlükəsizliyinin qanunvericilik təminatının əsasını təşkil edir. Belə ki, Konstitusiyanın "Silahlı Qüvvələr" adlanan 9-cu maddəsinin 1-ci bəndinə əsasən, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Konstitusiyanın 71-ci maddəsinin 3-cü bəndində müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırılmasının mümkünlüyü təsbit olunmuşdur. Konstitusiyanın 74-cü maddəsinin 3-cü bəndində isə göstərilir ki, vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağana and içmiş şəxs dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının konstitusiyalarını müqayisə etdikdə, Rusiya Federasiyasında dövlət təhlükəsizliyinin konstitusion-hüquqi təminatının daha bariz şəkildə ifadə olunduğunu müəyyən edirik. Belə ki, Rusiya Federasiyası Konstitusiyasının 13-cü maddəsində məqsədi və fəaliyyəti dövlətin konstitusiya quruluşu əsaslarının, təhlükəsizliyinin, ərazi bütövlüyünün pozulmasına yönələn ictimai birliklərin yaradılmasının qadağan edildiyi, 55-ci maddəsində dövlətin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olduqda insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yol verildiyi, 71-ci maddəsində dövlətin təhlükəsizliyinin Rusiya Federasiyasının idarəçiliyinə aid olması bilavasitə təsbit olunmuşdur (11).

Ökəmizdə milli təhlükəsizliyin cinayət-hüquqi təminatının əsasını, heç şübhəsiz, Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə qəbul edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmiş Cinayət Məcəlləsi təşkil edir. Təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib mənafelərinin daxili və xarici təhdidlərdən müdafiə oluna bilmək vəziyyətini əks etdirdiyindən, başqa sözlə, təkcə cəmiyyətin və dövlətin təhdidlərdən qorunmasını deyil, həmçinin hər bir insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsini nəzərdə tutduğundan, bu münasibətlər sistemi CM-nin Xüsusi hissəsinin heç də ayrı-ayrı maddələri ilə deyil, bütövlüklə cinayət qanunu ilə mühafizə edilir. Bununla belə, milli təhlükəsizliyə təhdid yaradan obyektlərin hamısının xarakterinin və təhlükəlilik dərəcəsinin eyni olmadığını, dövlətin konstitusiya quruluşuna qəsd edən, transmilli, mütəşəkkil, terrorçuluq, ekstremizm, zorakı xarakterli cinayətlərin daha təhlükəli olduğunu nəzərə

almaq lazımdır. Bu mənada dövlətin konstitusiya quruluşuna yönəlik qəsdlər, şübhəsiz, milli təhlükəsizliyin əsas təhdidləri sırasına daxildir və öz ictimai-siyasi və hüquqi nəticələrinə görə dövlət hakimiyyəti əleyhinə törədilən cinayətlər içərisində özünəməxsus yer tutur.

Sovet dövründə "dövlətin konstitusiya quruluşu" ifadəsinin yerinə "dövlətin ictimai quruluşu" ifadəsindən istifadə olunurdu. Hesab edilirdi ki, hər bir ictimai quruluş - inkişafı müvafiq formasiyanın qanunlarına əsaslanan vahid orqanizmdir və formasiyanın qanunları onun əsas cəhətlərini müəyyən edir. Konstitusion normalar ali hüquqi qüvvəyə malik olduğundan və cari qanunvericiliyin bazasını təşkil etdiyindən, ictimai quruluşu nizama salan əsas hüquq normaları sayılırdı (19, s. 75-78).

Cinayət-hüquqi mühafizənin obyekti qismində çıxış edən konstitusiya quruluşunun normativ anlayışı olmasa da, nəzəriyyədə ona anlayışlar verilmişdir. Məsələn, V.T.Kabışev konstitusiya quruluşunu konstitusion nizamasalmanın predmetini təşkil edən ictimai münasibətlərin sistemi kimi nəzərdən keçirmişdir (10, s. 24-27.) O.Q.Rumyantsevə görə ictimai münasibətlərin məcmuyu konstitusiya quruluşunu, ictimai münasibətləri tənzim edən prinsiplər isə konstitusiya quruluşunun əsasını təşkil edir (18, s. 19). L.V.Butko hesab etmişdir ki, konstitusiya quruluşu hüquqi kateqoriya olub, ictimai və dövlət quruluşunun mahiyyətinin ifadəsi üçün istifadə edilir (7, s. 72). V.V.Paliy isə yazmışdır ki, konstitusiya quruluşu dedikdə, dövlət və ictimai həyatın təşkilinin elə vəziyyəti başa düşülür ki, burada dövlət - vətəndaş cəmiyyətinin demokratik hüquqi xarakterli siyasi təşkilatı, insan, onun hüquq və azadlıqları, şərəf və ləyaqəti - ali dəyər, bunlara riayət edilməsi - dövlətin əsas vəzifəsi sayılır (14, s. 14-19).

Hesab edirik ki, konstitusiya quruluşuna yalnız hüquqi anlayış kontekstində baxılması səhv olardı, o, kifayət qədər geniş məzmunlu olub, sosial, siyasi və digər mənalarda da nəzərdən keçirilməlidir. Bu baxımdan konstitusiya quruluşu – dövlətin əsas qanunu ilə müəyyən edilmiş, siyasi, ictimai, iqtisadi və s. əsas növ ictimai münasibətlərin sistemidir. Azərbaycan Respublikası CM-nin vəzifələrindən biri də dövlətin konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan ibarətdir. CM-nin 31-ci fəsli buna uyğun olaraq "Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər" adlanır. CM-nin bu fəslində təsbit olunmuş cinayətlər ənənəvi olaraq ictimai təhlükəlilik dərəcəsi yüksək olan cinayətlər sayılır. Bu cinayətlərin sisteminə əsas etibarı ilə qüvvədən düşmüş 1960-cı il CM-nin Xüsusi hissəsinin "Dövləti cinayətlər" adlanan birinci fəslində təsbit olunmuş cinayətlər daxil edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, dünyanın qabaqcıl dövlətlərinin cinayət qanunvericiliyində bəhs etdiyimiz cinayətlər mühafizə olunan qəsd obyektləri içərisində, adətən, ön sırada yerləşdirilmişdir. Məsələn, Amerika Birləşmiş Ştatlarının nümunəvi CM-nin Xüsusi hissəsi "Dövlətin mövcudluğu və təhlükəsizliyi əleyhinə olan qəsdlər" ilə başlayır. Almaniya Federativ Respublikası CM-nin Xüsusi hissəsi də dövlət mənafeyi əleyhinə olan cinayətlər ilə başlayır və bura dövlətə xəyanət, demokratik hüquqi dövlət, xarici təhlükəsizlik üçün təhdid yaradan əməllər ilə yanaşı, konstitusion quruluşun əleyhinə olan cinayətlər də aid edilir (§ 105 - Konstitusion

orqanları məcbur etmə; §106 - Prezidenti məcbur etmə; § 106 b - Qanunverici orqanın fəaliyyətini pozma və s.) (21).

Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər konstitusion quruluşun əsas prinsiplərinə, dövlətin və cəmiyyətin siyasi, iqtisadi və sosial əsaslarına, bu obyektlərin daxili və xarici təhlükələrdən müdafiə olunma vəziyyətini təmin edən ictimai münasibətlərə qəsd edən ictimai təhlükəli əməllərdir. Konstitusiya quruluşunun əsasları dedikdə, adətən, ölkənin siyasi, iqtisadi, sosial sisteminin əsas elementləri: dövlət hakimiyyətinin mənbəyi, forması, şəxsiyyətin hüquqi statusu, onun hüquq və azadlıqları, dövlətin suverenliyi, ərazi bütövlüyü və konstitusiyada təsbit olunmuş digər əsas müddəalar başa düşülür. Rusiya konstitusiya hüququ elminin görkəmli nümayəndələrindən olan M.V.Baqlay konstitusiya quruluşu əsaslarının dörd növünü ayırmışdır: 1) konstitusiya quruluşunun humanist əsasları; 2) Rusiya dövlətinin əsas xarakteristikası; 3) konstitusiya quruluşunun iqtisadi və siyasi əsasları; 4) dövlət hakimiyyətinin təşkili əsasları (12, s. 115). Dövlət təhlükəsizliyi dövlətin konstitusiya quruluşunun, suverenliyinin və ərazi bütövlüyünün, bir sözlə, şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyət kəsb edən maraqlarının müdafiə oluna bilmək vəziyyətidir. Dövlətin suverenliyi onun ölkə daxilində və xaricində müstəqilliyini nəzərdə tutur. Ölkə daxilində suverenlik konstitusiyanın və qanunların aliliyində ifadə olunur.

Azərbaycan Respublikası CM-nin 31-ci fəslinin adında "dövlətin konstitusiya quruluşunun əsasları" və "dövlətin təhlükəsizliyi" anlayışları bir-biri ilə əlaqəli ifadələr kimi təsbit olunsa da, onların eyni mənalı və tam üst-üstə düşən anlayşlar olmadığı, yəni müstəqil olduqları nəzərə alınmalıdır, əks halda, qanunda onların hər ikisinin göstərilməsinə ehtiyac olmazdı. Hesab edirik ki, dövlətin təhlükəsizliyi daha geniş anlayışdır, konstitusiya quruluşunun əsasları onun əsas elementlərindən biridir. Bu iki anlayışa görə CM-nin 31-ci fəslinə daxil olan cinayətləri qəsd obyektləri əsasında şərti olaraq iki qrupa bölə bilərik. "Dövlətə xəyanət" (maddə 274), "Casusluq" (maddə 276), "Silahlı qiyam" (maddə 280), "Təxribat" (maddə 282), "Dövlət sirrini yayma" (maddə 284), "Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi" (maddə 284-1), "Məzmununda dövlət sirri olan sənədləri itirmə" (maddə 285) cinayətləri dövlətin təhlükəsizliyinə qəsd edən, "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə" (maddə 275), "Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə (maddə 277), "Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə (maddə 278), "Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma" (maddə 279), "Dövlət əleyhinə yönələn açıq çağırışlar" (maddə 281), "Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması" (maddə 283), "Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə sabit qrup yaratma" (maddə 283-1) cinayətləri isə dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlər sayılır. Təsnifatın şərti xarakter

daşıdığını ona görə vurğulayırıq ki, bu qruplara daxil olan cinayətlərin bəzilərinin eyni zamanda hər iki qrupa aid edilməsi mümkündür. Məsələn, hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma cinayəti (maddə 281.1) dövlətin konstitusiya quruluşunun əsasları ilə yanaşı, dövlətin ərazi bütövlüyünün və təhlükəsizliyinin pozulması, hamının qanun qarşısında bərabərliyinin təminatı üçün də təhlükə yaradır.

Misal gətirək. S.N.R., Z.H.İ.və K.H.A. qabaqcadan əlbir olan bir qrup şəxs şəklində “Listviüa” markalı çap makinasında yazmaqla, “Samsung” markalı surətçıxaran cihazda çoxaltmaqla Azərbaycan əraziləri hesabına “Car-Balakən Respublikası”nın yaradılması, hakimiyyətin zorla ələ keçirilməsi, Azərbaycan Respublikası konstitusiya quruluşunun zorla dəyişdirilməsi, ərazi bütövlüyünün parçalanmasına yönələn çağırışları özündə əks etdirən, 15 vərəqədən ibarət “Ulu babaların səsi” başlıqlı mətnləri hazırlayaraq, onları sellofan bağlamalara yığıb, 2008-ci ilin oktyabr ayının 12-dən 13-nə keçən gecə N.S. məxsus VAZ-2103 markalı 62-BB-510 nömrə nişanlı avtomaşınla, rayon sakinlərinin həmin materiallarla oxuyub tanış olması və onların təşkil etdikləri cinayətkar qrupa cəlb edilməsi məqsədi ilə, rayonun əksər kəndlərində əhalinin daha çox toplaşdığı yol kənarlarına, avtobus dayanacaqlarına, döngələrə, müxtəlif ictimai əhəmiyyətli idarələrin qarşısına atmışlar. Məhkəmənin 21 aprel 2009-cu il tarixli hökmü ilə həmin şəxslər Azərbaycan Respublikası CM-nin 281.2-ci maddəsində nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinmişlər (1).

Məlum olduğu kimi, cinayətin obyektini təşkil edən ictimai münasibətlər predmetindən asılı olaraq, iki növə ayrılır: 1) maddi xarakterli ictimai münasibətlər; 2) qeyri-maddi xarakterli ictimai münasibətlər. Birinci növ ictimai münasibətlərə zərər predmeti təşkil edən əşyaları məhv etmək, zədələmək, götürmək və ya əvəz edilməklə yetirilir. İkinci növ ictimai münasibətlərdə predmet qismində müəyyən sosial dəyərlər, mənafelər çıxış edir. Bəhs etdiyimiz cinayətlərdə Azərbaycan Respublikasının dövlət və ictimai quruluşunun konstitusiya ilə müəyyən olunmuş prinsiplərinə riayət edilməsi ümumi obyekt qismində çıxış edir. Bu cinayətlərin xüsusi obyektini isə dövlət hakimiyyəti maraqlarının realizəsi ilə bağlı yaranan ictimai münasibətlər təşkil edir. Təhlükə mənbəyindən asılı olaraq bu fəslə daxil olan cinayətlərin bilavastə obyektini, adətən, aşağıdakı qruplara ayırırlar: 1) dövlətin xarici təhlükəsizliyi; 2) dövlətin daxili təhlükəsizliyi; 3) dövlətin suverenliyi; 4) ərazi toxunulmazlığı; 5) dövlətin müdafiə qabiliyyəti; 6) dövlətin iqtisadi təhlükəsizliyi (9, s. 25; 13, s. 4-5).

Dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərin predmetini nə təşkil edir? Cinayət hüququ nəzəriyyəsində belə bir mövqe ifadə olunmuşdur ki, qəsdə məruz qalan ictimai münasibətlərdə predmet qismində əşya istisna təşkil etdikdə, onun yerini münasibətlərdə iştirak edən digər sosial nemət (dəyər) tutmuş olur (8, s. 28). Fikrimizcə, cinayətin predmeti ilə ictimai münasibətlərin predmetinin

bir-biri ilə eyniləşdirilməsi düzgün olmaz. Cinayət qanunu ilə mühafizə olunan ictimai münasibətlərin predmetini maraq (mənafe) təşkil edir ki, bu da hüququn yaranması və inkişafını determinə edən amil kimi çıxış edir. Tələbat mənafeyin, mənafe isə fəaliyyətin şərti sayılır. Cinayətin törədilməsi üçün şəxsdə təkcə tələbat və mənafeyin deyil, həm də onları realizə etməyə vadar edən motivlərin olması zəruridir (28, s. 27).

Cinayət qanununun ayrı-ayrı normalarında bu və ya digər marağın (mənafeyin) mühafizəsinin bilavasitə öz əksini tapmasına rast gəlinir. Məsələn, CM-nin 12.2-ci maddəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cinayət məsuliyyətinə cəlb edilə bilinmələrinin şərtlərindən biri kimi, Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətmələri göstərilmişdir. CM-nin Xüsusi hissəsində "mənafe" ifadəsindən həm fəslin adında (33-cü fəsil - "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər"), həm də ayrı-ayrı maddələrdə istifadə olunmuşdur (36, 38, 154, 201, 308, 309, 310 və s. maddələr). Ona görə də hesab edirik ki, dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərin predmeti qismində cinayət qanunu ilə mühafizə olunan müəyyən maraqlar (mənafelər) çıxış edir. Bu fəslə daxil olan bəzi cinayətlər (məsələn, CM-nin 279-cu maddəsində nəzərdə tutulmuş dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayəti) xarakter etibarı ilə konkret şəxsə bilavasitə təsir göstərilməsini nəzərdə tutsa da, qanunla mühafizə olunan münasibətlərin predmeti qismində hər bir halda hansısa mənafeyin (məsələn, dövlətin konstitusiya quruluşunun siyasi əsaslarını mühafizə etmək tələbatı) çıxış etdiyini nəzərə almalıyıq. Bu cinayətlərdə zərərçəkmişə göstərilən konkret təsir həmin mənafeyə zərər vurmanın vasitəsi kimi, vurulan zərərin daşıyıcısı qismində isə təkcə bilavasitə zərərə məruz qalmış şəxs deyil, həmçinin bütövlükdə dövlət və cəmiyyət çıxış edir.

Beləliklə, dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlər qanunla mühafizə oluna ictimai münasibətlərin subyektlərinə həm bilavasitə (birbaşa), həm də vasitəli (dolayı) təsir göstərir. Bu cinayətlər ilə zərər yetirmənin üç üsulunu ayırmaq olar: 1) münasibətlərin subyektlərinə təsir göstərilməklə; 2) münasibətlərin predmetinə təsir göstərilməklə; 3) subyektlər arasında münasibətlərin əlaqəsinə təsir göstərilməklə. Ümumiyyətlə, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyinə qəsd edən cinayətlərə fəal hərəkətlərlə törədilmək xarakterikdir. Əlbəttə ki, CM-nin 285-ci maddəsində nəzərdə tutulmuş məzmununda dövlət sirri olan sənədləri itirmə cinayəti istisna təşkil edir. Eyni zamanda, bu cinayətlərin böyük əksəriyyəti maddənin dispozisiyasında göstərilən əməlin törədildiyi andan başa çatmış sayılır. İctimai təhlükəli nəticənin  baş verib verməməsinin cinayətin başa çatmış sayılması üçün əhəmiyyətli olmaması bəhs edilən cinayətlərin təhlükəlilik dərəcəsinin yüksəkliyini təsdiq edir.

Bunu CM-nin 277-ci maddəsində nəzərdə tutulan dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayəti kontekstində nəzərdən keçirək. I instansiya məhkəməsinin  07 may 2010-cu il tarixli hökmü ilə Ə.M.D. Azərbaycan Respublikası

CM-nin 28, 277; 29, 32.2, 277; 32.2, 232.2.1 və 278-ci maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinmişdir. Belə ki, o, 1995-ci ilin may ayının ortalarında Azərbaycan Respublikası Müdafiə Nazirinin sabiq müavinləri M.Ş.X. və M.V.A., Müdafiə Nazirliyi Hərbi Ticarət İdarəsinin sabiq rəisi S.H.S., DİN-nin ləğv edilmiş XTPD-nin sabiq əməkdaşı B.F.E. və qeyriləri ilə cinayət əlaqəsinə girərək, Azərbaycan Respublikasının Prezidentini fiziki məhv etmək və Azərbaycanda dövlət çevrilişi etmək, yəni terror aktı törətməklə hakimiyyəti zorla ələ keçirmək barədə planlar işləyib hazırlamış, bu məqsədlə 1995-ci ilin may ayının 26-dan 27-nə keçən gecə Azərbaycan Milli Ordusunun 130 N-li hərbi hissəsindən hər birinin dəyəri 12.000 ABŞ dolları olmaqla, cəmi 24.000 ABŞ dolları dəyərində 2 ədəd - 011423 və 011724 nömrəli "İqla- 1" markalı zenit raketləri və 14.000 ABŞ dolları dəyərində 1085559000 nömrəli zenit raketlərinin atıcı qurğusunun oğurlanmasını təşkil etmiş, həmin partlayıcı silahları və qurğunu əldə etdikdən sonra bir müddət öz bağ evində saxlamış, 1995-ci ilin may-iyul ayları ərzində mütəmadi olaraq cinayətkar dəstənin üzvləri ilə müzakirələr apararaq Prezidentin təyyarəsini vurmaqdan ötrü raketlərin buraxılması üçün meydançalar seçilməsində, nəhayət, 1995-ci ilin iyul ayınm 2-də xarici səfərdən qayıdan Prezidentin təyyarəsini həmin raketlər və atıcı qurğudan istifadə etməklə vurulmasına cəhddə iştirak etməklə, Prezidentin, habelə təyyarədə olan ekipaj üzvünin həyatlarına sui-qəsdə, 3.562 400 AZN dəyərində dövlət əmlakı olan TU-154 markalı təyyarəni məhv etməyə cəhdə iştirak etmiş, lakin hava şəraitinin dəyişməsi və bu səbəbdən Prezidentin təyyarəsinin hava limanına başqa istiqamətdən enməsi səbəbindən, yəni iradələrindən asılı olmayan səbəblərdən öz cinayətkar niyyətlərinə çata bilməmişdir (2).

Dövlət xadiminin və ya ictimai xadimin həyatına qəsd etmə cinayətləri dövlətin konstitusiya əsaslarının dəyişdirilməsi ilə nəticələnə bilərmi? Fikrimizcə, bu sualln cavabı təsdiqedici olmalıdır. Misal gətirək. 1968-ci ildə Amerikada qara dərili hüquq müdafiəçisi Martin Lyuter Kinqin öldürülməsi hökuməti bu irqdən olan işçilərin əmək şəraitlərinin ağdərili işçilərin əmək şəraiti ilə eyniləşdirməsinə yönəlmiş konstitusion islahatlar həyata keçirməyə vadar etdi. Müasir demokratik cəmiyyətlərdə siyasi partiyalar, ictimai birliklər dövlət həyatının, həqiqətən, ayrılmaz hissəsini təşkil edir. Siyasi partiyaların, ictimai birliklərin yalnız sağlam rəqabəti şəraitində azad seçki, dövlət idarəçiliyində bərabər əsaslar ilə iştirak etmə və s. bu kimi fundamental hüquq və azadlıqların təmin edilməsi mümkündür.

Milli hüquq əsəbiyyatımızda göstərildiyi kimi, dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayətinin yüksək ictimai təhlükəliliyi bilavasitə Azərbaycan Respublikasının siyasi sisteminə və ümumi təhlükəsizliyinə, dövlət hakimiyyətinin normal fəaliyyətinin pozulmasına, habelə şəxsiyyətin həyat və sağlamlığına zərər vurulmasında ifadə olunur. Bu əməllər ölkənin ictimai quruluşunun sabitliyi və siyasi rejimin stabilliyinin qorunub saxlanılması üçün təhlükə yaradır (6). Tarixən siyasi xarakterli cinayət sayılmış bu cinayətin əsas obyektini dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlər təşkil edir.

Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayətinin determinantları qismində, adətən, aşağıdakı amillər çıxış edir:1) dövlətin mövcud siyasi, hüquqi, o cümlədən idarəetmə rejimi ilə razı olmama; 2) siyasi, etnik, dini, irqi dözümsüzlük; 3) dövlətin ictimai, siyasi həyatına xarici müdaxilə hallarının olması. Əlbəttə ki, dövlət idarəçiliyində mütəşəkkil cinayətkarlıq, korrupsiya, qulluq mənafeyi əleyhinə olan elementlərin olması bəhs edilən cinayətlərin törədilməsinə rəvac verir. Halbuki ictimaiyyət dövlət hakimiyyət orqanları tərəfindən cinayətkarlığa qarşı barışmaz mübarizənin aparılmasının şahidi olmalı və buna əmin olmalıdır. Əks halda, ictimai rəydə həmin şəxslərin fərdi şəkildə cəzalandırılması istəyinin formalaşması təhlükəsi ola bilər. Məsələn, 2005-ci ilin mart ayında Rusiyada A.B.Çubaysın həyatına odlu silahdan istifadə edilməklə sui-qəsd törədilmişdi. Qəsdin əsas iştirakçılarından biri olan V.V.Kvaçkov ifadəsində həmin cinayəti A.B.Çubaysın rəhbərliyi altında Rusiyada həyata keçirilən dövlət əmlakının özəlləşdirilməsi siyasətinə etiraz əlaməti olaraq, həmin islahatlar ilə dövlət əmlakının talan edilməsinə əvəz olaraq törətdiyini göstərmişdi (15).

Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 277-ci maddəsinin ilk redaksiyasında sanksiya olaraq on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşdu. Azərbaycan Respublikasının 30 may 2014-cü il tarixli 975-IVQD №-li Qanunu ilə CM-nin 55.2-ci maddəsində “on beş” sözü “iyirmi” sözü ilə əvəz edilmişdir. Bununla əlaqədar CM-nin 277-ci maddəsinin də sanksiyası dəyişdirilərək, “on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır” şəklində müəyyən edilmişdir. Bu, ilk baxışdan cinayət cəzasının sərtləşdirilməsi təsirini bağışlaya bilər. Lakin məsələyə dərindən nüfuz edilməsi bunun, əksinə, yəni cəzanın humanistləşdirilməsinə xidmət etdiyini göstərir. Belə ki, sanksiyanın bu cür qurulması müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə ömürlük azadlıqdan məhrüm etmə cəzası arasında olan hədsiz məsafənin müəyyən qədər azalmasına, sonuncu növ cəzanın həqiqətən müstəsna hallarda tətbiq edilməsinə, bir sözlə, cəzanın differensiasiyasına imkan verir. Bu zaman bəzi hallarda cinayət törətmiş şəxslərə 15 il müddətinə azadlıqdan məhrum etmə, yoxsa ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi məsələsində çətinliyin olduğunu da nəzərə almaq lazımdır. Çünki bəzən hər iki növ cəzanın təyin edilməsi ədalətsiz olur. Ona görə də CM-in 55.2-ci maddəsinə və buna uyğun olaraq CM-nin 277-ci maddəsinin  sanksiyasına edilən dəyişikliyi düzgün sayırıq.

Fikrimizcə, qanunverici cinayət-hüquqi sanksiyaları qurarkən təkcə cinayətin ictimai təhlükəlilik dərəcəsinə qiymət vermir, həm də əhaliyə çəkindirici təsir göstərir. İ.M.Rəhimova görə qanunverici azadlıqdan məhrum etmə ilə bağlı cəza növünün müəyyən edilməsi zamanı aşağıdakılara diqqət yetirməlidir:

1) məhkəmənin cəza təyin edərkən fərdiləşdirmə imkanının genişləndirilməsi məqsədi ilə sanksiyalarda azadlıqdan məhrum etmə cəzasının hüdudlarının geniş olmasına üstünlük verilməlidir;

2) ehtiyatsızlıqdan cinayətin törədilməsinə və qəsdən ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayətlərin törədilməsinə görə azadlıqdan məhrum etmə cəzasının müddətlərinin maksimum aşağı salınması məqsədəuyundur;

3) xüsusilə ağır cinayətlərə və xüsusi təhlükəli residivlərə görə azadlıqdan məhrum etmə cəzasının həddinin artırılması məqsədəmüvafiqdir;

4) ayrı-ayrı kateqoriya cinayətlərə azadlıqdan məhrum etmə cəzasının müxtəlif müddətlərinin tətbiqinin səmərəliliyinin eksperiment yolu ilə müəyyən edilməsi (16, s. 198).

Müəllif azadlıqdan məhrum etmə cəzasının gələcəkdə də residiv və ağır və xüsusilə ağır cinayətləri törətmiş şəxslər üçün başlıca cəza növü kimi qalacağını qeyd etmiş və haqlı olaraq perspektivdə qısa müddətli azadlıqdan məhrum etmə cəzasından imtina ediləcəyini göstərmişdir. Çünki belə cəza ilə praktik olaraq hər hansı nəticəyə nail olmaq mümkün deyildir (17, s. 256).

Yeri gəlmişkən qeyd edək ki, bir sıra ölkələrin cinayət qanunvericiliyində dövlət başçısının həyatına qəsd etməyə görə müstəqil tərkiblər formulə edilmişdir. Məsələn, İspaniyanın qüvvədə olan CM-nin (1995-ci il) "Konstitusiya əleyhinə olan cinayətlər" adlanan XXI bölməsinin 2-ci fəslinə daxil olan 485-ci maddəyə əsasən kralın və ya onun yaxın qohumlarının öldürülməsi iyirmi ildən iyirmi beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu cinayətə cəhd etməyə görə isə həmin cəzadan bir pillə aşağı həddə cəza müəyyən edilmişdir. Cinayətdə iki və daha çox ağırlaşdırıcı hal olduqda isə təqsirkara iyirmi beş ildən otuz ilədək müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilir (22).

Norveçin hal-hazıradək qüvvədə olan 22 may 1902-ci il tarixli CM-nin 100-cü maddəsinə əsasən (1981-ci il 12 iyun tarixli redaksiyasında) dövlət başçısının həyatdan məhrum edilməsi ilə əlaqəsi olan, buna yardım və ya cəhd etmiş şəxs 21 ilədək müddətə həbsdə saxlama cəzasına məruz qala bilər (20). Türkiyə Cəza Qanununun 156-cı maddəsinə əsasən dövlət başçısının həyatına qəsd etmək və ya buna cəhd etmək ömürlük ağır həbsdə saxlama ilə cəzalandırılır (26).

Keçmiş SSRİ-nin tərkibində olmuş və hazırda müstəqil olan bəzi dövlətlərin cinayət qanunlarında da dövlətin ali vəzifəli şəxslərinin həyatına qəsd etmək üstündə müstəqil normada məsuliyyət müəyyən edilmişdir. Məsələn, Litva Respublikası CM-nin (2000-ci il) "Litva dövlətinin müstəqilliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə olan cinayətlər" adlanan 16-cı fəslinə daxil olan 115-ci maddəsində Litva Respublikasının Prezidentinin həyatına qəsd etmək üstündə on ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir (23). Moldova Respublikası CM-nin (2002-ci il) "Dövlət hakimiyyəti və təhlükəsizliyi əleyhinə olan cinayətlər" adlanan 17-ci fəslinə daxil olan 342-ci maddəsi "Moldova Respublikası Prezidentinin, parlament sədrinin, baş nazirin həyatına qəsd etmə" adlanır. Həmin maddəyə əsasən qeyd edilən şəxslərin dövlət və ya siyasi fəaliyyətlərinə son qoymaq və ya bu fəaliyyətlərinə görə qisas almaq məqsədilə onların həyatına qəsd etmə on iki ildən iyirmi ilədək müddətə

azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır (24).

Rusiya Federasiyasının CM-də dövlət başçısının həyatına qəsd etmək üstündə ayrıca normada məsuliyyət nəzərdə tutulmamışdır (25). Azərbaycan Respublikasının CM-də də vəziyyət bu cürdür. Halbuki Azərbaycan Respublikasının Prezidenti hüquqi statusuna görə dövlət həyatında müstəsna rola malikdir. Ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edən Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır. O, Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Azərbaycan Respublikasının Prezidenti dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Ona görə də Azərbaycan Respublikası CM-nin Xüsusi hissəsində Azərbaycan Respublikası Prezidentinin və ya onun səlahiyyətlərini icra edən şəxsin həyatına qəsd etmək üstündə ayrıca normada məsuliyyətin müəyyən edilməsini məqsədəuyğun hesab edirik.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. Cinayət işi № 1(102)-107/ 10, 2010.
2. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. Cinayət işi № 1 (102)-128/11, 2011.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Hüquq ədəbiyyatı, Bakı, 2016, 584 s.
4. Azərbaycan Respublikasının Konstitusiyası. «Hüquq Yayın Evi», Bakı, 2016, 92 s.
5. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası / http://www.migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf
6. Qasımzadə R.A. Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı) əməllərinə görə cinayət məsuliyyəti. Bakı, "Avrora" nəşriyyatı, 2012, 192 s.
7. Бутько Л. В. Конституция и конституционная реформа. СПб., 1998, 127 с.
8. Глистин В.К. Проблема уголовно-правовой охраны общественных отношений (объект и квалификация преступлений. Л.: Изд-во ЛГУ, 1979. - 128 с.
9. Дьяков С.В. Преступления против основ конституционного строя и безопасности государства: уголовно-правовое и криминологическое исследование. СПб.: Юридический центр Пресс, 2012, 250 с.
10. Кабышев В.Т. Конституционные ожидания // Конституционное и муниципальное право. Саратовская государственная юридическая академия. 2013, № 11. С. 24-27.
11. Конституция Российской Федерации. М., ИНФРА-М, 2006, 48 с.
12. Конституционное право Российской Федерации: Учебник / М.В. Баглай. - 10-е изд., изм. и доп. - М.: Норма: НИЦ ИНФРА-М, 2013. - 784 с.
13. Курс уголовного права. Особенная часть. Т. 5. Учебник для вузов. Под ред. Г.Н.Борзенкова и В.С.Комиссарова. –М.: ИКД «Зерцало-М», 2002, 512 с.
14. Палий В.В. Особенности объекта преступлений против основ конституционного строя и безопасности государства. Саратовская государственная юридическая академия. 2011, № 6. С. 14-19.
15. Покушение на Анатолия Чубайса / http://politcom.ru/258.html
16. Рагимов И.М. Преступность и наказание. М.: ОЛМА Медиа Групп, 2012.- 304 с.
17. Рагимов И.М. Философия преступления и наказания. – СПб.: Издательский Дом Р. Асланова «Юридический центр», 2013. – 288 с.
18. Румянцев О.Г. Основы конституционного строя России (понятие, содержание, вопросы становления). Монография. М.: издательство «Юрист», 1994. - 285 с.
19. Советское государственное право. Учебник. М.: Юрид. лит., 1985. – 464 с.
20. Уголовное законодательство Норвегии. СПб.: Изд-во «Юридический центр Пресс», 2003. – 375 с
21. Уголовное право зарубежных государств. Особенная часть: Учеб. пос. / Под ред. И.Д.Козочкина. – М.: Издательский дом «Камерон», 2004. – 528 с.
22. Уголовный кодекс Испании. М.: Издательство Зерцало, 1998. – 218 с.

23. Уголовный кодекс Литовской Республики / http://зачётка.рф/book/6107/Уголовный%20кодекс%20Литовской%20Республики%20-%20ред.%20В.%20Павилонис..html
24. Уголовный кодекс Республики Молдова / http://base.spinform.ru/show_doc.fwx?rgn=3835
25. Уголовный кодекс Российской Федерации. М., Проспект, КноРус, 2015, 240 с.
26. Уголовный кодекс Турции. СПб.: Изд-во «Юридический центр Пресс», 2003, 374 с.
27. Федеральный закон «О безопасности» / http://svr.gov.ru/svr_today/doc4.htm
28. Филановский И.Г. Социально-психологическое отношение субъекта к преступлению. Л.: Изд-во Ленингр. ун-та, 1970. - 174 с.

**Алиев Назим Казым оглы**

**Общая характеристика преступлений посягающих на основы конституционного строя Азербайджанской Республики в контексте законодательного обеспечения национальной безопасности**

**РЕЗЮМЕ**

Основы конституционного строя – это совокупность отношений, присущих обществу и государству, которые закреплены в основном законе Азербайджанской Республики. Обеспечение национальной безопасности зависит также от успешной уголовно-правовой охраны основ конституционного строя государства. В статье рассматриваются эти вопросы и предлагаются некоторые изменения в действующем уголовном законодательстве Азербайджанской Республики.

**Aliyev Nazim Kazım oglu**

**General description of crimes infringing on the fundamentals constitutional system of the Republic of Azerbaijan in the context of legislative support of national security**

**SUMMARY**

The fundamentals of the constitutional system are a set of relations inherent in society and the state, which are fixed in the main law of the Republic of Azerbaijan. Ensuring national security also depends on the successful criminal and legal protection of the foundations of the constitutional order of the state. The article considers these issues and suggests some changes in the current criminal legislation of the Republic of Azerbaijan.